Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 2(102)-5556/2022 22.09.2022

**ALİ MƏHKƏMƏ**

**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Ali Məhkəməsi**
**Mülki kollegiyasının**

**QƏRARDADİ**

kassasiya şikayətinin qeyri-mümkün hesab edilməsi barədə

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki kollegiyası, hakimlər Hüseynov Abiddin Qabil oğlu (məruzəçi), Nurməmmədov Əhməd Güləhməd oğlu və Əliyev Zaur Əli oğlundan ibarət tərkibdə,

cavabdeh X2 tərəfindən verilmiş kassasiya şikayətini nəzərdən keçirərək,

**MÜƏYYƏN ETDİ:**

Cavabdeh X2 Bakı Apelyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-4336/2022 nömrəli, 14 iyun 2022-ci il tarixli qətnaməsindən kassasiya şikayəti vermişdir.

Kassasiya şikayəti nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, şikayətinin verilməsi üçün dövlət rüsumu qanunla nəzərdə tutulmuş məbləğdə ödənilməmişdir.

Belə ki, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununun 8.2. maddəsinə əsasən qiymətləndirilməyən iddia ərizəsinin, məhkəmə əmri haqqında ərizənin, xüsusi icraat qaydasında baxılan iş üzrə ərizənin verilməsinə görə 100 manat dövlət rüsumu nəzərdə tutulmuşdur.

Həmin Qanunun 8.6-cı maddəsinə əsasən apellyasiya, kassasiya və ya əlavə kassasiya şikayətinin, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üçün ərizənin verilməsinə görə bu Qanunun müvafiq olaraq 8.1-ci və 8.2-ci maddələrində müəyyən edilmiş dövlət rüsumunun 50 faizi ödənilməlidir.

Lakin hazırki işdən görünür ki, cavabdeh qanunda müəyyən olunmuş məbləğdən az – 25 manat dövlət rüsumu ödəmişdir.

MPM-nin 407.4-cü maddəsinə əsasən, kassasiya şikayətinə vəkilin orderi və dövlət rüsumunun ödənilməsini sübut edən sənəd əlavə olunmalıdır.

MPM-nin 408.1.3-cü maddəsinə görə, kassasiya şikayətinə müəyyən olunmuş qaydada və məbləğdə dövlət rüsumunun ödənilməsi barədə sənədlər əlavə edilməmişsə kassasiya şikayəti qaytarılır.

Göstərilənlərə əsasən Məhkəmə kollegiyası hesab edir ki, kassasiya şikayəti qeyri-mümkün hesab edilməli və iş apellyasiya instansiyası məhkəməsinə göndərilməlidir.

Qeyd olunanları nəzərə alaraq və MPM-nin 404-1.1, 404-1.2, 407.1, 408.1, 408.1.3-cü maddələrini rəhbər tutaraq, Məhkəmə kollegiyası

**QƏRARA ALDİ:**

Cavabdeh X1 Bakı Apelyasiya Məhkəməsinin Mülki kollegiyasının 2(103)-4336/2022 nömrəli, 14 iyun 2022-ci il tarixli qətnaməsindən verdiyi kassasiya şikayəti qeyri-mümkün hesab edilsin və iş Bakı Apellyasiya Məhkəməsinə qaytarılsın.